DOI: https://doi.org/10.36719/2663-4619/115/245-249

**Ləman Nərimanova**
Bakı Slavyan Universiteti
https://orcid.org/0009-0007-9041-5507
leman.nerimnova@gmail.com

# Müstəqilliyin bərpasından sonra Azərbaycan və Almaniya Federativ Respublikası arasında əlaqələr

## Xülasə

Məqalə Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə həyata keçirdiyi xarici siyasətlə bağlıdır. Avropa dövlətləri ilə bütün sahələrdə münasibətlərin qurulması olduqca vacibdir. Belə ki, “ Qoca Dünyanın” nümayəndələri həm iqtisadi inkişaf baxımından, həm də dünya siyasətinə təsirləri baxımından ölkəmizin milli maraqları üçün əhəmiyyət daşıyır. Bu dövlətlər arasında Almaniya Federativ Respublikasını xüsusi vurğulamaq lazımdır. Çünki digər Avropa dövlətlərindən fərqli olaraq Azərbaycanda alman koloniyaları olmuşdur. 100 ildən artıq bir dövrdə bu xalqın nümayəndələri bu torpaqlarda yaşamışlar. Almanların Bakı, Gəncə, Şəmkir, Göygöl ərazilərində qoyduqları izlər günümüzdə mədəni irsin nümunəsi olaraq mühafizə olunur.

Almaniya Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirir. Müxtəlif dövrlərdə iki ölkə arasında imzalanmış rəsmi sənədlər dövlətlərarası münasibətlərin hüquqi bazasını təşkil edir.

Məqalə yazılarkən daha çox nəzəri metodlardan istifadə olunmuşdur. Bu mövzu barəsində yazılmış mənbələrə istinadlar olunmuşdur. Məqalənin yazılmasında məqsəd dövlətimiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasındakı münasibətlərin tarixini araşdırmaq olmuşdur. Hazırda Almaniya ilə Azərbaycan arasındakı münasibətlər yüksək inkişaf səviyyəsindədir.

***Açar sözlər:*** *Almaniya, enerji, əməkdaşlıq, xarici siyasət, Münhen*

**Laman Narimanova**
Baku Slavic University
https://orcid.org/0009-0007-9041-5507
leman.nerimnova@gmail.com

# Relations Between Azerbaijan and the Federal Republic of Germany After the Restoration of Independence

## Abstract

The article is related to the foreign policy of the Republic of Azerbaijan after its restoration of independence. Establishing relations with European states in all areas is very important. Thus, representatives of the "Old World" are important for the national interests of our country both in terms of economic development and in terms of their influence on world politics. Among these states, the Federal Republic of Germany should be especially emphasized. Because, unlike other European states, there were German colonies in Azerbaijan. Representatives of this people lived on these lands for more than 100 years. The traces left by the Germans in the territories of Baku, Ganja, Shamkir, Goygol are preserved today as examples of cultural heritage.

Germany highly appreciates the role of Azerbaijan in the energy security of Europe. Official documents signed between the two countries at different times constitute the legal basis of interstate relations.

When writing the article, more theoretical methods were used. References were made to sources written on this topic. The purpose of writing the article was to examine the history of relations

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

between the Republic of Azerbaijan and the Federal Republic of Germany after our state restored its independence. Currently, relations between Germany and Azerbaijan are at a high level of development.

***Keywords:*** *Germany, energy, cooperation, foreign policy, Munich*

## Giriş

XX əsrin son onilliyində Azərbaycan müstəqilliyini yenidən bərpa etdi. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan respublikasının xarici siyasət kursunun əsas istiqamətləri beynəlxalq aləmdə öz mövcudluğunu qoruyub saxlamaq və təsdiq etmək, eyni zamanda dünyada baş verən həm siyasi, həm də iqtisadi proseslərdən kənarda qalmamaq idi.

Azərbaycan şərəfli dövlətçilik tarixinə, zəngin dövlətçilik irsinə malik bir ölkədir. Bu ənənələr ağır və faciəli məqamlarda dəfələrlə qırılsa da xalqımız çətin sınaqlardan məharətlə çıxaraq tarixi ədaləti bərpa etmişdir. Diplomatiya vasitəsilə də müstəqilliyini qoruyub saxlaya bilmişdir

**Tədqiqat**

Xarici siyasət hər bir dövlətin siyasi iradəsinin göstəricisidir. Bu beynəlxalq münasibətlər sistemində mövqelərin müəyyən edilməsini və möhkəmlənməsini, iqtisadi, siyasi və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasını və inkişafını təmin edir. Milli təhlükəsizlik sahəsində də dövlətin mənafelərinin ödənilməsini, regional və beynəlxalq problemlərin birgə səylərlə aradan qaldırılmasını nəzərdə tutur. Xarici siyasətin düzgün müəyyənləşdirilməsi və həyata keçirilməsi dünyanın mürəkkəb, həssas bölgəsində olan, coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz öz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, islam ölkələri, türk dünyasının siyasi, iqtisadi, mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir.

Dövlətimiz Avropa ölkələri ilə qarşılıqlı münasibətlərin qurulmasında və inkişaf etdirilməsində hər zaman səylər göstərir. Orta əsrlərdən ölkəmizin Avropa ölkələri əlaqələri mövcud olmuşdur. Bu əlaqələr XIX və XX əsrdə Azərbaycanın müxtəlif sahələrinə, xüsusən də neft sahəsinə Avropa ölkələrinin kapitalının qoyulması ilə səciyyələnirdi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cumhuriyyətinin müstəqilliyi dövründə bu əlaqələr qorunub saxlana bilmişdi. Belə ki, Bakıda bəzi Avropa ölkələrinin nümayəndəlikləri fəaliyyət göstərirdi. 1922-ci ildən sonra Azərbaycan SSR-da xarici siyasət fəaliyyəti Mərkəzi hökumətin əlində cəmləşdiyindən birbaşa əlaqələr kəsildi. İkinci dünya müharibəsindən sonra isə Avropa ölkələri ilə əlaqələr yalnız Mərkəzi hökumətin nəzarəti altında mədəni sahədə əlaqələr ilə xarakterizə olunurdu.

1991-ci ildə dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra Avropa ölkələri ilə münasibətlərimiz yeni keyfiyyət mərhələsinə qədəm qoymuş oldu. Avropa ölkələri ilə münasibətlərin qurulmasını bir sıra amillər şərtləndirirdi. Bu qitədə yerləşən Avropa İttifaqı dünyanın iqtisadi güc mərkəzlərindən biridir. Bir sıra iri korporasiyalar, beynəlxalq və regional təşkilatlar burada yerləşir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü də Avropada yerləşir ki, bu da onun dünya siyasətinə ciddi təsir imkanlarına malik olduğunu açıq-aydın göstərir.

Dövlətimizin xarici siyasətinin Avropa istiqamətində mühüm yerlərdən birini Almaniya Federativ Respublikası ilə münasibətlər tutmuşdur. İki ölkə arasında münasibətlərin qədim tarixi kökləri var. XIX əsrin əvvəllərində Azərbaycanın qərb rayonlarına almanların köçürülməsinə başlanılmışdı. Almanlar burada koloniyalar salmış, neft və dağ-mədən sənayesinin inkişafına sərmayə qoyaraq bu sahələrin dirçəldilməsində və inkişafında mühüm rol oynamışlar. Bakı, Gəncə, Şəmkir, Göygöl rayonlarında və kəndlərində alman izləri hələ də qalır.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycandakı alman icması 700-dən çox ailəni birləşdirirdi. Alman mədəniyyət mərkəzi Bakı kirxası hesab olunurdu. Almaniyada azərbaycanlı diaspora mövcud idi (Qasımlı, 2015).

Almaniya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 12-də tanımışdır. Diplomatik əlaqələr fevralın 20-də qurulmuşdur. 1992-ci il may ayının 29-da Almaniyanın Bonn şəhərində səfirlik

açılması haqqında fərman imzalanmışdır. Səfirlik eyni zamanda Avstriya, İsveşrə, Hollandiya və Luksemburqda rəsmi nümayəndə idi. Səfirlik fəaliyyətinə iyun ayında başlamışdır. AFR-in Azərbaycandakı səfirliyi isə sentyabrın 22-də açılmışdır.

Qarşılıqlı əlaqələrin qurulması ilk olaraq iqtisadiyyat sahəsini əhatə edirdi. 1993-cü ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Almaniya ilə Azərbaycan arasındakı əlaqələri dərinləşdirib yeni səviyyəyə qaldırmaq üçün və dünya ictimaiyyətinə respublikanın daha doğru tanıdılması işində mədəni, elmi, humanitar əlaqələrin mühüm rolu olduğu nəzərə alınaraq yeni təkliflər planı hazırlanaraq AFR-dəki səfirliyə göndərilmişdir. Təkliflər münasibətləri yeni səviyyəyə çıxarmağı nəzərdə tuturdu. Hər iki tərəfin səyləri nəticəsində qarşılıqlı münasibətlərdə canlanma yarandı. Bu dövrdə mövcud olan Dağlıq Qarabağ münaqişəsi zamanı Almaniya Federativ Respublikası Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir.

1994-cü il iyun ayının 1-də Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında münasibətlərin əsasları haqqında birgə bəyanat qəbul edildi. Bu sənədlə tərəflər dostluq və əməkdaşlıq münasibətlərini hərtərəfli inkişaf etdirmək istəklərini bəyan etdilər. Dövlətlər hərtərəfli əməkdaşlığın qurulub genişləndirilməsinə yüksək qiymət verir, iki ölkə arasında sosial və humanitar sahələrdə əməkdaşlığı dərinləşdirəcəklərinə dair ümumi razılığa gəldilər. Bu sənəd iki ölkə arasındakı münasibətləri inkişaf etdirmək baxımından ciddi əhəmiyyət daşıyır, həmçinin əməkdaşlıq məsələlərini müzakirə etmək üçün geniş imkanlar açırdı. 1995-ci ilin mayında Moskvada faşizm üzərində qələbənin 50 illiyi münasibəti ilə keçirilən toplantı çərçivəsində AFR-in federal kansleri Helmut Kol ilə cənab prezident Heydər Əliyev arasında görüş olmuşdur. Görüş zamanı ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olunmuşdur (Azərbaycan – Almaniya münasibətləri: Ümumi tarixi arayış, 2020, s. 20).

1996-cı il iyulun 1-4-də iki ölkə arasındakı münasibətlərdə tarixi hadisə baş vermişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin AFR-ə ilk rəsmi səfəri baş tutmuşdur. Zəngin proqrama malik olan bu səfər çərçivəsində prezident Heydər Əliyev AFR prezidenti R.Hersoq, kansler H.Koll, bir sıra dövlət nümayəndələri, bundestaqın Qafqaz parlament qrupu, Almaniyadakı Azərbaycan diasporasının nümayəndələri ilə görüşmüşdü. Danışıqların başlıca mövzusu iqtisadi əlaqələrin inkişaf etdirilməsi idi. Almaniyanın iri iqtisadi mərkəzi olan Köln şəhərində prezident Heydər Əliyev işgüzar dairələrin nümayəndələri, iri şirkət rəhbərləri, maliyyə-bank sektorunda çalışan iş adamları ilə də görüş keçirmişdi. Bu səfər Azərbaycana xarici investisiya qoyuluşunun və beynəlxalq kreditlərin cəlb edilməsində mühüm rol oynayıb.

Danışıqların yekun nəticəsi olaraq ikitərəfli münasibətlərə dair bir sıra sənədlər imzalandı. Səfər zamanı Azərbaycan Prezidenti Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan federasiyasının nümayəndələri ilə görüş keçirmişdi. Bu səfərin böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, iki ölkə arasında münasibətlərin inkişafında keyfiyyətcə yeni bir mərhələ açılır, iqtisadi əməkdaşlıq üçün hüquqi – siyasi əsas yaradılırdı. Alman kapitalının ölkə iqtisadiyyatına cəlb edilməsi böhrandan çıxmağa kömək edirdi (İlham Əliyev Berlində “15-ci Petresberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirak edib, 2024).

2001-ci il mayın 20-21-də AFR-in vitse-kansleri, xarici işlər naziri Y.Fişer və AFR bundestaqının sədrinin müavinin A. Follmer Azərbaycana səfər etmişdilər. Alman sənayeçilərinin və bank sektorunun nümayəndələlərinin bu səfərin tərkibinə daxil olduğunu nəzərə alsaq deyə bilərik ki, əsas məqsəd Almaniya sərmayələrinin Azərbaycana cəlb edilməsi idi. İki ölkə arasındakı əməkdaşlığın konkret nümunəsi olaraq Ferrostaal şirkətinin Neftçalada Xıllı balıqartırma zavodunun tikintisini göstərmək olar. Zavodun açılış mərasimində o zaman Baş Nazir olan cənab İlham Əliyev iştirak etmişdi (8).

Almaniya Avropa İttifaqının aparıcı dövlətlərindən biridir. 2004-cü ildə Avropa ittifaqının qəbul etdiyi “ Yeni Qonşuluq Siyasəti” proqramı Cənubi Qafqaz ölkələrinə , xüsusən regionun açar ölkəsi hesab olunan Azərbaycana diqqəti artırmağa sövq etdi. Alman şirkətləri ölkəmizdəki bərpaolunan enerjinin inkişafı layihələrinə maraq göstərmişlər. Xızı rayonunun Yeni Yaşma, Şurabad qəsəbələrinin ərazisində Almaniyanın “Berlin Wind” şirkəti tərəfindən 50 MVt-lıq “Yeni Yaşma” Külək Elektrik Parkında yenidənqurma işləri aparılmışdır. 2018-ci ildə parkın açılışı olmuşdur. Ölkələrimiz arasında səhiyyə sahəsində də əməkdaşlıq mövcuddur. Yüzlərlə azərbaycanlı tibb

mütəxəssisi Almaniyada təkmilləşmə kurslarına göndərilib (Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991–2016), 2017, s. 477).

Azərbaycan respublikasının Prezidenti cənab İlham Əliyev 2003- 2025-ci illər ərzində dəfələrlə Almaniyada işgüzar səfərlərdə olmuşdur. 2015, 2016, 2020 , 2023, 2024-cü illərdə Münhen Təhlükəsizlik Konfransında iştirak etmişdir. 2024-cü ilin 25-26 aprel tarixlərində Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "XV Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün Almaniyada işgüzar səfərdə olmuşdur. Almaniya dünya siyasətində öz yeri və rolu olan ölkədir. Ona görə də dövlət başçısının bu dövlətə səfərləri xüsusi əhəmiyyət daşıyır. Azərbaycan lideri səfər zamanı ikitərəfli münasibətlərin pik həddə olduğunu xüsusi qeyd edib. O bildirib ki, son vaxtlar Almaniyaya səfərləri müntəzəm xarakter alıb və Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır. 2024-cü ilin aprelində Almaniyada işgüzar səfərdə olan cənab prezident 2023-cu ilin martında Berlində, iki ay əvvəl Münxendə kansler ilə görüşdüyünü xatırladaraq bildirib: “İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir” (4).

Müasir dövrdə ölkənin təmsil olunması üçün diaspora faəliyyətinin rolu danılmazdır. Diaspora bir xalqın və ya etnik qrupun öz ölkəsindən kənarda yaşayan topluluğunu ifadə edir. Diaspora mədəni, sosial və milli kimliyin qorunması prosesini özündə ehtiva edir. Mədəni diaspora müxtəlif ölkələrdə yaşayan insanlar arasında mədəni əlaqələr yaratmaq, aid olduğu xalqın dəyərlərini paylaşmaq və qorumaq məqsədilə yaradılır. Bu diasporaların fəaliyyət sahələri mədəni tədbirlər, təhsil proqramları, sosial layihələrdir. Almaniya Azərbaycan diasporunun təmsil olunduğu ən böyük Avropa ölkələrindən biridir. 1988-ci ildən bu ölkədə onlarla cəmiyyət fəaliyyət göstərib və onların əksəriyyəti indiyədək fəaliyyətini davam etdirir. Azərbaycan - Almaniya Cəmiyyəti 1988-ci ildə Berlin şəhərində yaradılmışdır. Eyni zamanda Berlində Azərbaycan-Alman Akademiyası (1986), Azərbaycan Mədəniyyət Mərkəzi və nəzdində fəaliyyət göstərən “Savalan” jurnalı, Odlar Yurdu Mədəniyyət və Təhsil Cəmiyyəti, Bonn şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi, Düsseldorfda Alman-Azərbaycan Cəmiyyəti (1991), Frankfurt şəhərində Mədəni əlaqələr üzrə Azərbaycan Cəmiyyəti (1990), Köln şəhərində Azərbaycan Mədəniyyət Cəmiyyəti, Nürnberq şəhərində Azərbaycan Mədəniyyət Birliyi (1990), Limburqda Azərbaycan Evi (1997) və s. qurumlar yaradılmışdır. Azərbaycan Respublikası ilə Almaniya arasında sosial-mədəni və iqtisadi əlaqələrin inkişafında diaspor təşkilatları fəal iştirak edirlər. 1996-cı ildə Almaniyadakı Azərbaycan cəmiyyətləri Almaniya Azərbaycan Cəmiyyəti Federasiyasında (GAAFS) vahid strukturda birləşdi. Federasiyanın əsas məqsədi diaspor təşkilatları arasında əlaqələri gücləndirməkdir. 1999-cu il avqustun 21-22-də Bonnda GAAFS-in I Konqresi keçirilmişdi. 2004-cü ilin oktyabrında Berlində Nizami Gəncəvi adına Mədəniyyət İnstitutu fəaliyyətə başlamışdır. 2008-ci il Almaniya Federativ Respuplikasında “Azərbaycan ili” elan edilmişdir. Bu məqsədlə Mədəniyyət nazirliyimizin 120 nəfərdən nümayəndə heyəti Almaniyaya səfər edib. “Azərbaycan ili “ çərçivəsində Münhen, Hamburq, Ştutqart və digər böyük şəhərlərdə Azərbaycan mədəniyyəti təbliğ olunub, maraqlı sərgilər, təqdimat mərasimləri baş tutmuşdur. Tədbirlərdə görkəmli mədəniyyət xadimləri, incəsənət ustaları iştirak etmişlər. 12-15 iyul 2008-ci tarixlərində Drezden qalereyasında “ Azərbaycan müasir incəsənət sərgisi” keçirilib (7).

Mədəni əlaqələrin inkişafında 1990-cı illərdə Bakıda yaradılmış “Alman-Azərbaycan Cəmiyyəti” ni xüsusilə qeyd etmək lazımdır. Bu cəmiyyət iki ölkə arasındakı mədəniyyət , elm, təhsil, idman və digər sahələrdə münasibətlərin inkişafına xidmət edir. Cəmiyyətin sədri görkəmli ictimai xadim, professor Çingiz Abdullayevdir. Cəmiyyətin fəaliyyəti çoxşaxəlidir. Sosial-mədəni xarakterli tədbirlərlə yanaşı tarix sahəsində tədqiqatlar aparılmışdır. Alman - Azərbaycan Cəmiyyəti hər iki ölkədə müasir elmin və iqtisadiyyatın aktual problemlərinə həsr olunan konfransların keçirilməsində təşəbbüs göstərir. Cəmiyyət tərəfindən azərbaycan, alman, rus dillərində ölkəmizdə yaşayan almanların tarixindən bəhs edən kitablar da nəşr olunmuşdur. “Almanlar Azərbaycanda”, “Almaniya-Azərbaycan əlaqələri”, “Bakı- Hamburq dünyaya açılan darvaza”. “Azərbaycan Odlar Yurdu” kimi kitablarda oxuculara bu barədə məlumatlar verilmişdir (Abdullayev, 2014). Mədəniyyət və ticarət əlaqələr çərçivəsində Bakı - Maynts, Sumqayıt - Lüdviqshafen şəhərləri qardaşlaşmış şəhərlərdir.

Malik olduğumuz coğrafi-siyasi mövqe Almaniya üçün maraq doğurur. Müstəqilliyin bərpasından sonra Azərbaycan bir sıra enerji layihələrinin həm iştirakçısı, həm də tranzit ölkə olaraq Avropa enerji təhlükəsizliyinə öz töhfəsini verir. Almaniya Federativ Respublikası Azərbaycan Respublikasının Avropada ən vacib siyasi, iqtisadi və strateji tərəfdaşlarından biridir. Dünya iqtisadiyyatında və siyasətində mühüm rol oynayan rəsmi Berlin Cənubi Qafqazın aparıcı ölkəsi sayılan Azərbaycanla əməkdaşlığı dərinləşdirmək üçün səylərini daim artırır. Almaniya Avropa İttifaqının aparıcı dövləti kimi Cənubi Qafqazda gedən prosesləri yaxından izləyir. O, regiondakı vəziyyəti düzgün qiymətləndirərək reallığa uyğun qərarlar qəbul edir. AFR Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərin normallaşmasının tərəfdarı, sülhün bərqərar olmasının əsas dəstəkçilərindən biridir.

Azərbaycan və Almaniya arasında ikitərəfli münasibətlər hazırda da yüksək səviyyədədir. Effektiv dialoq mövcuddur. Berlin bu illər ərzində Avropada Bakının ən vacib siyasi-iqtisadi tərəfdaşlarından birinə çevrilib. Eyni zamanda Avropa İttifaqının Şərqi Avropa ölkələri ilə sıx əməkdaşlığını nəzərdə tutan və 2009-cu ilin may ayında Praqada qüvvəyə minən "Şərq Tərəfdaşlığı" proqramının təşviqatçısıdır. Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasındakı münasibətlər hazırda sürətli inkişaf dövrünü yaşayır.

## Nəticə

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası beynəlxalq aləmdə özünü tanıtmaq, suverenliyini qoruyub saxlamaq, həmçinin iqtisadi inkişafa nail olmaq üçün bir sıra dövlətlər ilə əlaqələr qurmağa başlamışdır. Bu dövlətlər içində Almaniya Federativ Respublikasının özünəməxsus yeri var. Çünki almanlar XIX əsrdə bu regiona köç etmiş, burada öz koloniyalarını yaratmışlar. Ölkələr arasında ikitərəfli münasibətlər daha çox iqtisadi əlaqələr üzərində qurulmuşdur. Alman kapitalı ölkənin iqtisadiyyatının inkişafına dəstək olmuşdur. Bir çox alman şirkətləri iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoymuşdur. Almaniya Avropanın enerji təhlükəsizliyi üçün Azərbaycanı etibarlı tərəfdaş hesab edir. Həyata keçirilən enerji layihələri bunun bariz nümunəsidir.

Eyni zamanda iki ölkə arasında mədəni münasibətlər də yüksək səviyyədədir. Almaniyanın müxtəlif şəhərlərində yaradılmış diaspora təşkilatları bu münasibətləri inkişaf etdirir.

Müxtəlif sahələrdə ölkələrimiz arasındakı əməkdaşlıq hazırda yüksələn xətt üzrə inkişaf edir. 30 ildən çox zamanı əhatə edən bu dövrdə ikitərəfli əməkdaşlığın hüquqi bazasını təşkil edən 70-dən çox sənəd imzalanmışdır. Dövlət nümayəndələrinin qarşılıqlı səfərləri çərçivəsində bir sıra məsələlər müzakirə olunmuşdur.

## Ədəbiyyat

1. Abdullayev, Ç. (2014). *Azərbaycan–Almaniya əlaqələri*. Bakı: Mütərcim.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991–2016). (2017). Bakı.
3. Azertag. (n.d.). https://azertag.az/xeber
4. Prezident.az. (2024, Aprel 26). *İlham Əliyev Berlində "15-ci Petresberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib*. https://president.az/az/articles
5. Qasımlı, M. (2015). *Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003) (II hissə)*. Bakı.
6. Report.az. (n.d.). https://report.az
7. Azerbaijan Portal. (n.d.). https://www.azerbaijans.com
8. Heydər Əliyev İrsi. (2020, may). *Azərbaycan–Almaniya münasibətləri: Ümumi tarixi arayış*. https://www.lib.aliyevheritage.org/az/687645.html

Daxil oldu: 15.12.2024
Qəbul edildi: 22.03.2025